

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 209 (23.621)

*2 dekabr 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də xalqa müraciət edib. Ölkəmizin başçısı Laçın rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edərək vurğulayıb ki, ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonunun zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri bizim milli sərvətimizdir. Bütövlükdə, azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirəcəyik.

Prezident İlham Əliyev Laçın rayonunun, xüsusilə Laçın dəhlizinin strateji əhəmiyyəti, düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikaları, noyabrın 10-da imzalanmış Bəyanatın icra edilməsi və bəndləri barədə məlumat verərək bildirib ki, biz ərazi bütövlüyümüzü bərpa etməklə, Dağlıq Qarabağ münaqişəsini birdəfəlik həll etməklə bölgədə bu gün və gələcək üçün yeni təhlükəsizlik, yeni əməkdaşlıq formatını təşkil etdik.

Azərbaycan Respublikasının Prezidenti bu dövrlə bağlı müraciətlərini yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırıb: "Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

## İcbari tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxs statuslu Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə çevrilsin.

2. "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 dekabr 2020-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 1 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin

## N İ Z A M N A M Ə S İ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) muxtar respublikada icbari tibbi sığortanın tətbiqini təmin edən, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri özündə cəmləşdirən, səhiyyə xidmətlərinin alıcısı olan və bununla bağlı zəruri xərclərin ödənilməsini təmin edən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampı və blankı vardır.

1.6. Agentlik Naxçıvan şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyətinin məqsədi və istiqamətləri

2.1. Agentliyin fəaliyyətinin məqsədi Naxçıvan Muxtar Respublikasında əhalini icbari tibbi sığortaya cəlb etmək, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri cəmləşdirmək, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər görmək, həmin xidmətlərə əhalinin əlçatanlığını təmin etmək, habelə sığortaolunanların hüquqlarını və qanuni mənafelərini qorumaq, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar toplanmış vəsaitlərdən təyinatı üzrə səmərəli istifadəni və sığorta ödənişlərinin vaxtında icra olunmasını təmin etməkdir.

2.2. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. muxtar respublikada icbari tibbi sığorta sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.2.2. əhalinin icbari tibbi sığortalanmasını həyata keçirmək və icbari tibbi sığortanın maliyyə dayanıqlığını təmin etmək;

2.2.3. icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə edilməsində əhali üçün bərabər şərtlərin yaradılması, icbari tibbi sığortanın hamı üçün əlçatan olması, əhalinin sağlamlığının qorunması məqsədi ilə tibbi xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görmək;

2.2.4. icbari tibbi sığorta sahəsinin inkişafını təmin etmək.

### 3. Agentliyin vəzifələri və hüquqları

3.1. Agentlik, bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. icbari tibbi sığorta və səhiyyə sahəsi üzrə məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

3.1.2. beynəlxalq təcrübə nəzərə alınmaqla, icbari tibbi sığorta sahəsində araşdırmalar aparır və nəticələri əsasında xidmətlər zərfinin müəyyən olunmasına dair təkliflər hazırlayır;

3.1.3. icbari tibbi sığorta haqlarının və bu Nizamnamə ilə müəyyən edilmiş digər vəsaitlərin yığılmasını və onlardan təyinatı üzrə səmərəli istifadəni təmin edir, icbari tibbi sığortanın maliyyə sabitliyinin təmin edilməsi məqsədilə sığorta ehtiyatı yaradır;

3.1.4. xidmətlər zərfi çərçivəsində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər görür;

3.1.5. xidmətlər zərfində nəzərdə tutulmuş tibbi xidmətlərin göstərilməsi üçün tibb müəssisələri ilə müqavilələr bağlayır;

3.1.6. xidmətlər zərfinə daxil olan həcmdə göstərilən tibbi xidmətlərə görə sığorta ödənişlərinin müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə tibb müəssisələrinə ödənilməsini təmin edir;

3.1.7. icbari tibbi sığorta üzrə riskləri sığorta etdirmək üçün müraciət edən şəxslərlə icbari tibbi sığorta müqaviləsi bağlayır;

3.1.8. xidmətlər zərfi çərçivəsində tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərin həcminin, müddətinin, keyfiyyətinin və tariflərinin tərəflərlə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət edir;

3.1.9. qanunvericiliyin tələbləri nəzərə alınmaqla, icbari tibbi sığorta sahəsində vahid elektron informasiya sistemi və elektron məlumat bazası yaradır, tibb müəssisələrinin və digər istifadəçilərin həmin elektron informasiya sistemindən istifadə imkanlarını təmin edir;

3.1.10. icbari tibbi sığortaya cəlb olunan tibb müəssisələrinin vahid reyestrini aparır;

3.1.11. icbari tibbi sığorta sahəsində təlimlər təşkil edir, peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verir və onların həyata keçirilməsində iştirak edir;

3.1.12. icbari tibbi sığorta sistemində sığorta olunan şəxslərin hüquqlarının müdafiəsinə təminat verir;

3.1.13. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin icbari tibbi sığorta sahəsi ilə bağlı fəaliyyətini əlaqələndirir;

3.1.14. icbari tibbi sığorta sahəsində elektron xidmətləri təşkil edir;

3.1.15. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil edir;

3.1.16. icbari tibbi sığorta sisteminin inkişaf istiqamətləri üzrə təkliflər verir;

3.1.17. dövlət və kommersiya sirrinin, qanunvericiliyə əsasən konfidensial hesab edilən, habelə həkim sirrini təşkil edən məlumatların və məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

3.1.18. icbari tibbi sığorta sahəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görür, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat verir;

3.1.19. Agentliyin informasiya təminatını təşkil edir, öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılması, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini həyata keçirir;

3.1.20. icbari tibbi sığortanın təbliği və bu istiqamətdə əhalinin maarifləndirilməsi məqsədi ilə tədbirlər görür;

3.1.21. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görür, qabaqcıl təcrübəni nəzərə almaqla, icbari tibbi sığorta sahəsində elmi-texniki nailiyyətləri tətbiq edir;

3.1.22. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə qanunvericiliyə uyğun olaraq baxır və qanunla müəyyən edilmiş qaydada tədbirlər görür;

3.1.23. Agentliyin maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

3.1.24. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

3.2. Agentliyin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

3.2.1. icbari tibbi sığorta sahəsində beynəlxalq təcrübəni öyrənmək və təcrübə mübadiləsi aparmaq;

3.2.2. xidmətlər zərfi çərçivəsində tibbi xidmətlər göstərilməsi üçün tibb müəssisələrini seçmək;

3.2.3. xidmətlər zərfi çərçivəsində tibbi xidmətlər üçün tariflərin müəyyən olunmasına dair təkliflər hazırlamaq;

3.2.4. xidmətlər zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin siyahısı və tariflərinin müəyyən olunmasına dair təkliflər hazırlamaq;

3.2.5. tibb müəssisəsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığortaolunana vurulmuş zərərin ödənilməsi üçün məhkəməyə müraciət etmək;

*Ardı 2-ci səhifədə*

3.2.6. tibb müəssisələri müqavilənin şərtlərini pozduqları hallarda tibbi xidmətlərə çəkilən xərcləri qismən ödəmək və ya ödəməkdən imtina etmək;

3.2.7. zərərin sığortaolunan tərəfindən vurulduğu hallar istisna olmaqla, sağlamlığına vurulmuş zərər üçün cavabdeh olan fiziki və ya hüquqi şəxslərdən sığortaolunana göstərilən tibbi yardıma çəkilən xərclərin ödənilməsini məhkəmə qaydasında tələb etmək;

3.2.8. sığortaolunanlara göstərilən tibbi xidmətlərin həcminin və keyfiyyətinin monitorinqini həyata keçirmək;

3.2.9. sığortaolunanlara göstərilən tibbi xidmətlər üçün tibb müəssisələrinə ödənilən sığorta ödənişlərinin əsaslılığına nəzarət etmək;

3.2.10. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan məlumatlar (sənədlər) almaq;

3.2.11. Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.12. icbari tibbi sığorta sahəsində rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr və tədqiqatlar aparmaq, analitik və metodik materiallar hazırlamaq, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.13. könüllüləri öz fəaliyyətinə cəlb etmək;

3.2.14. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.15. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Agentliyin idarə olunması

4.1. Agentliyin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Agentliyin direktoru rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

4.2. Direktorun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Direktorun müavini ona həvalə edilən vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

4.3. Agentliyin direktoru:

4.3.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.3.2. müavini və struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsü aparır;

4.3.3. Agentliyin ştat cədvəlinin və işçilərin əməkhaqlarının təsdiq edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təkliflər verir;

4.3.4. Agentliyin maliyyə planlaşdırmasını aidiyyəti üzrə razılaşdırmaqla təsdiq edir;

4.3.5. bu Nizamnamənin 3.1.23-cü yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.3.6. bu Nizamnamənin 3.1.1-ci yarımbəndində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;

4.3.7. Agentliyin büdcəsinin icrasına nəzarət edir;

4.3.8. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.3.9. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.3.10. Agentliyin işçilərinin əməkhaqlarının, əməkhaqlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.3.11. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

4.3.12. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.3.13. bu Nizamnamə ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.3.14. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı işçi qruplar və komissiyalar yaradır;

4.3.15. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.3.16. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.3.17. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

### 5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, habelə dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə edilmiş gəlirdən, qrantlardan, cəlb olunan investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.2. Agentlik öz əmlakından və sərəncamında olan vəsaitdən bu Nizamnaməyə uyğun olaraq, Agentliyin xərclər smetası əsasında istifadə edir.

5.3. Maliyyə ilinin sonuna Agentliyin hesabında qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

### 6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həyata keçirir.

6.2. Agentlik hər il martın 31-dək əvvəlki ildə muxtar respublikada icbari tibbi sığorta sistemi ilə bağlı hesabatı, habelə Agentliyin fəaliyyətinə dair illik hesabatı Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir.

### 7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik qanunvericiliklə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik qanunvericiliyə uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edə bilər.

### 8. Agentliyin ləğvi və yenidən təşkili

Agentliyin ləğvini və yenidən təşkilini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həyata keçirir.

---

# Naxçıvan dəmir yolları tarixi inkişaf yolu keçmişdir

*Nəqliyyatın "qan damarı" adlanan dəmir yolu ötən dövr ərzində böyük inkişaf yolu keçib. Tarixə nəzər salsaq görərik ki, 1902-ci ildə Aleksandropol-Uluxanlı-İrəvan dəmiryol xəttinin tikintisi başa çatdığdan sonra Uluxanlıdan Culfaya dəmiryol xəttinin çəkilişinə başlanılıb. 1903-cü ildə Şərur və 1905-ci ildə Naxçıvan stansiyaları istismara buraxıldıqdan sonra uzunluğu 189 verst olan və Zaqafqaziya dəmir yolunun tərkibində sayılan Uluxanlı-Culfa xəttinin çəkilişi 1908-ci il yanvarın 20-də başa çatdırılmışdır. Yolda parovozların və vaqonların təchizatı və təmiri məqsədilə Naxçıvanda əsas parovoz deposu, Culfada isə dövriyyə parovoz deposu yaradılmışdır. Həmin vaxt Naxçıvanda sənayeni və nəqliyyatı inkişaf etdirmək məqsədilə Araz çayı boyunca Mincivan-Culfa sahəsində də dəmiryol xəttinin çəkilişi üçün zəruri tədbirlər həyata keçirilmişdir. Lakin 1905-ci ildən çar hökumətinin getdikcə zəifləməsi, inqilabi hərəkatın bütün Rusiyanı, o cümlədən Azərbaycan Dəmir Yolunu bürüməsi bu kimi işlərin arxa plana keçməsinə səbəb olmuşdur. 1914-cü ildə başlanan Birinci Dünya müharibəsi dəmir yolunun da işini xeyli çətinləşdirdi.*




1920-ci il dekabr ayının 2-də Naxçıvan İnqilab Komitəsinin qərarı ilə dəmir yolunun Naxçıvan şöbəsi yaradılmışdır. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 20 oktyabr 1926-cı il tarixli Qərarı ilə Naxçıvan Dəmir Yolu Stansiyasının rəsmi açılışı olmuşdur. Şərur-Culfa sahəsindəki yol təsərrüfatı qurğularına xidmət göstərmək məqsədilə 1928-ci ildə Naxçıvan Yol Distansiyası fəaliyyətə başlamışdır. 1936-cı ildə Ələt-Mincivan xəttinin tikintisi başa çatmış və istismara buraxılmışdır. Ümumi uzunluğu 126-km olan Mincivan-Culfa dəmiryol xətti isə Naxçıvanı Azərbaycanın paytaxı ilə birləşdirmişdir. Bu sahədə yol təsərrüfatına xidmət məqsədilə həmin ilin sentyabr ayında Ordubad Yol Distansiyası yaradılmışdır.

İkinci Dünya müharibəsi illərində Naxçıvan dəmiryolçuları da ciddi sınaqlara məruz qalmışlar. Həmin illərdə qatarların hərəkəti xüsusi hərbi qrafikə keçirilmiş, sərnişin daşınması məhdudlaşdırılmışdı. Müharibədən sonra, 1945-ci ilin iyulunda Dövlət Müdafiə Komitəsinin qərarı ilə müstəqil Azərbaycan Dəmir Yolu yaradılmış və quruculuq işləri həyata keçirilmişdir. Bütün təsərrüfatlarda nasazlıqlar tədricən aradan qaldırılmış, yük dövriyyəsi və parovozların orta sutkalıq məhsuldarlığı yüksəlməyə başlamışdır.

O dövrə qədər keçmiş SSRİ dəmir yolları sistemində elektrikləşmə, müasir rabitə və işarəvermə, dartı qüvvələrinin tətbiqi, lokomotiv və vaqon parklarının yeniləşməsi, yeni xətlərin çəkilişi, stansiyaların texniki inkişafı sürətlə həyata keçirilirdi. Azərbaycan dəmir yolu təsərrüfatı isə diqqətsizlikdən, inkişafdan geridə qalmışdır. Çünki ovaxtkı dövrdə sənayesi bir o qədər də inkişaf etməmiş Azərbaycan aqrar respublika simasında olaraq qalırdı və dəmir yolunda inkişafın səviyyəsinə bu kontekstdən baxılırdı.

Bir əsr yarıma yaxın dövr ərzində ölkəmizin dəmir yolları şanlı və keşməkeşli tarixi yaşamışdır. Respublikamızda dəmir yolu sisteminin möhkəm təməllər üzərində qurulmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Dəmir yolu təsərrüfatının ən sürətli və parlaq dövrü ulu öndərimizin Azərbaycana rəhbərlik etdiyi illəri əhatə edir. 1969-cu ildə respublika rəhbərliyinə gələn ümummilli liderimizin şəxsi təşəbbüsü sayəsində bütün respublika iqtisadiyyatında olduğu kimi, dəmir yolu nəqliyyatında da əsaslı dəyişikliklərə və köklü inkişafa təkan verildi. Dahi rəhbərin dəmir yoluna verdiyi böyük əhəmiyyət, onun inkişafına göstərdiyi qayğı qısa zaman kəsiyində öz bəhrəsini verdi. Dəmir yolu üçün ən əsaslı sayılan yol təsərrüfatının və stansiyaların inkişafı ön plana çəkildi, yeni vağzal binaları inşa olunaraq stansiyalarda yoldəyişən və işarəvermə qurğularının tam dispetçer mərkəzləşməsinə qoşulması təmin edildi.

Muxtar respublika üzrə artan yük və sərnişin daşınmasına olan tələbatın təmin edilməsi, eləcə də yüksək səviyyədə nəqliyyat xidmətinin təşkil edilməsi məqsədilə 1976-cı ildə dəmir yollarının İmişli stansiyasındakı mərkəzi aparatı ulu öndərimizin şəxsi təşəbbüsü ilə Naxçıvan şəhərinə köçürülərək Naxçıvan hissəsi kimi müstəqil fəaliyyətə başlamışdır.

1988-ci ildə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsinin başa çatması nəticəsində yük və sərnişin daşınmasında elektrovoz dartısından istifadə olunmasına başlanmışdır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən intensiv şəkildə həyata keçirilir, hər il dəmir yolu nəqliyyatı infrastrukturunun daha da müasirləşdirilməsi və dəmir yolu işçilərinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı ardıcıl işlər davam etdirilir.

Bu gün Naxçıvan dəmir yolu infrastrukturu inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. İnkişaf proqramına uyğun olaraq mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında yerləşən Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və Radio-rabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilmişdir. Muxtar respublikamızda yol-nəqliyyat kompleksinin yeniləşməsi istiqamətində görülən işlərin davamı olaraq Qarabörk və Vəlidağ stansiyalarında yükləmə və boşaltma meydanı yaradılmışdır. 2011-ci ilin may ayından isə Vəlidağ stansiyasından Qarabörk stansiyasına qum-çınqıl, Şahtaxtı stansiyasından isə Naxçıvan və Qarabörk stansiyalarına travertin-mərmər bloklarının daşınmasına başlanılmışdır. Dəmir yolu nəqliyyatı sisteminin idarə olunması, eləcə də yenidənqurma işlərinin həyata keçirilməsi üçün ixtisaslı kadrların hazırlanmasına da xüsusi diqqət yetirilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında"kı Sərəncamının icrasına uyğun olaraq Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr üçün müasir əyani dərs vəsaitləri ilə təmin olunan auditoriya istifadəyə verilmişdir.

Dəmiryolçu peşəsinin sirlərinin dərindən öyrənilməsi, praktik biliklərin artırılması və kadrların hazırlanması məqsədilə hər il Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri dəmir yolunun ayrı-ayrı strukturlarında istehsalat və diplom praktikası keçirlər. Hazırda universiteti və kolleci bitirmiş 26 nəfər məzun dəmir yolunun müxtəlif strukturlarında əmək müqaviləsinə əsasən müvafiq vəzifələrdə çalışır.

Dəmir yolunun fəaliyyətinin dayandırılması ilə 30 ilədək blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında yaxın gələcəkdə dəmir yolu bərpa olunacaqdır. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin 2020-ci il 10 noyabr tarixdə imzaladıqları Bəyanata əsasən Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilmişdir. Tərəflərin razılığı ilə yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir. Bununla Naxçıvanın blokadasına son qoyulacaq, muxtar respublikada yeni inkişaf mərhələsinə başlanılacaqdır.

*Naxçıvan dəmiryolçuları bundan sonra da öz işlərini günün tələbləri səviyyəsində quracaq, yükdaşıma ehtiyacını ödəməklə, sərnişinlərə yüksək səviyyədə nəqliyyat xidməti göstərəcək və muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.*

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti***



# "Qarabağ" dastanının "Laçın" boyu

Və nəhayət... Laçın... Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad olunması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəsmi açıqlamasından sonra onların hər birini qəhrəmanlıq tariximiz olan "Qarabağ" dastanının bir boyuna çevirərək qələmə almışam. Etiraf edim ki, günlərdir, qayıdışını gözlədiyimiz Laçın haqqında yazacağımı düşündükcə hər dəfə böyük məsuliyyət qarşısında qaldığımı hiss etmişəm, "mən necə yazmalıyam ki, Laçına layiq olsun", – deyə. Və ya mən Laçından yazmağa qadirəmmi? Bu sualları günlərdir, verirəm özümə. Lakin yazmalıydım. Laçınla Qarabağ dastanını tamamlamalıydım. Zəif, güclü, nə olursa-olsun, yazmalıydım. Bəlkə də, mənim kimi düşünən onlarla jurnalist var. Bəli, ola da bilər. Çünki Laçın deyiləndə gözlərim önündə o qədər böyük bir məkan canlanır ki, həm də Laçın o qədər qədim tarixə, zəngin təbiətə, coğrafiyaya malikdir ki, onu vəsf etməyi, sözün həqiqi mənasında, bacarmalısan. Gözəl Laçın, qayıdışın, azadlığın mübarək. Səndən yazıram, sənə nə dərəcədə layiq olduğunu bilməsəm də, yazıram. Bu yazını məndən qələbə məktubu, təbriki kimi qəbul et. Məktubumu Ali Baş Komandanımızın xalqımıza yenə də qələbə müjdəli müraciəti ilə başlayıram: ***"Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".***

### *Laçın Naxçıvandır, Naxçıvan Laçın*

Deyirlər ki, görmədiyin, bələd olmadığın yer haqqında yazmaq çətindir. Bu gün bu deyimin yanlış olduğunu anladım. Xeyr, əslində, gördüyün yer haqqında yazmaq çətinmiş. Naxçıvan kimi. Mən Naxçıvanın gözəlliklərini nə vaxt olduğu kimi, təsvir edəcəyim barədə çox düşünürəm. Laçında da dəfələrlə olmuşam. Uşaqlığımın çox yayı Laçında, babamın ata evində keçib. O qədər gözəl təəssüratlarım var ki, Laçın haqqında. Bəlkə, elə uşaqlıqdan xatirələrimə hopan o zəngin təəssüratlar qarşısında Laçın haqqında yazmağa cürət etmirdim. Çünki bu dəqiqə də o dairəvi həyət, sanki qayalıqların ovcunun içində bənd olmuş, böyürtkən kolları ilə hasarlanmış həyət gözlərin qarşısındadır. Həyətin dörd bir tərəfini əhatə edən həmin böyürtkən kollarının yanından baxanda, sanki dağın başından dərələrin ucsuz-bucaqsız dərinliklərini seyr edirdim, "Bu həyət burada necə durub", – deyə fikirləşirdim... Biz Laçına Şahbuz rayonunun Biçənək-Batabat yolu istiqamətindən maşınla gedirdik. Laçının dolanbac yolları ilə sanki bir anda dağların başına qalxır, oradan sürətlə aşağıya enirsən. Laçındakı o evin ətrafındakı görüntülər də, Laçına gedən yollar da o qədər Şahbuza bənzəyir ki... Mən bunu sonralar anladım. Laçına olan sevgim də, bəlkə də, elə bundan qaynaqlanırdı. Laçındakı o həyətdən mən Ağbulaqda, Gömürdə, Biçənəkdə, Aşağı, Yuxarı Qışlaqlarda, Küküdə, Güney, Qızıl Qışlaqlarda görmüşəm. O yollar Batabata, Ağbulağa, Gömürə qalxan yolların eynisidir. Göz uzandıqca dağların sinəsinə, qayaların köksünə səpələnmiş boz-yaşıl rəngli irili-xırdalı kollar Şahbuz şəhərindən müxtəlif istiqamətlərə şaxələnən dağ kəndlərində gördüklərimlə eynidir. Bir sözlə, Laçın, sanki Naxçıvandır, Naxçıvan da Laçın. Görənlər görüb, görməyənlər də bu azad yurda səfər edər, görər, mənim dediklərimi təsdiqləyər.

### *30 illik yaraları sağaldan həkimlər – şəhidlər*

II Qarabağ müharibəsi tariximizin parlaq səhifələrini təşkil edir. Bu parlaqlığı çox məqamlar xarakterizə edir. Dövlət-xalq birliyi, həmrəylik, vətənpərvərlik, torpaq sevgisi, bayraq sevdası, ölümün üzünə dik baxmaq və sair. Lakin biz nəsil üçün daha önəmli olan bir məqam da var ki, bu gün 30 illik Qarabağ yaralarını sağaldan həkimlər məhz biz nəslin övladlarıdır. 30 ildə sağalmaq bilməyən, qanı süzən, qaysaq bağlamayan yaraları 30 il əvvəl o acı günlərin hər birinin canlı şahidi olanların övladları sarıdı. Bu yaraların üstünə öz qanlarını məlhəm edib çəkdilər. 30 ilin yaraları 44 gündə sağaldı. Bu yaraları sağaldanlar həm də torpaqlarımızın nisgildən kor olan gözlərinə də məlhəm oldular. Torpaq canlandı, özünə gəldi, bayrağına , insanına, yurddaşına qovuşdu. Onların – o həkimlərin, o şəhidlərin hesabına. Qürur duyduğumuz, qarşılarında əbədiyyən baş əydiyimiz igid oğullarımızın hesabına geri alındı yurd yerlərimiz. Onlar öz gənc ömürlərini torpağın azadlığına, milli mənliyin xilasına, bir də ata-babaların torpaq təşnəsinə qurban verib bizi torpaqlı, elli, yurdlu etdilər. Üzərimizdən qaçqınlığı, köçkünlüyü götürdülər. Və tarix durduqca Qarabağın şahinlərinə, yaraların təbibinə çevrildilər. Ağdama, Kəlbəcərə, Laçına da qələbə çığırlarını o igidlər açdılar. Ruhunuz şad olsun, Vətən oğulları!

### *Laçın dəhlizi – ölüm tuneli*

Laçın dəhlizi ermənilər üçün olduqca böyük əhəmiyyətə malik idi. Bu, 1992-ci ilin mayında Azərbaycan Respublikasının ərazisində erməni qüvvələri tərəfindən Qarabağın qondarma "Dağlıq Qarabağ Respublikası" ilə Ermənistan Respublikası arasında açılan dəhlizdir. Uzunillərboyu fəaliyyət göstərən bu dəhliz Ermənistanı Qarabağın dağlıq hissəsinə birləşdirən yeganə təchizat və təminat yolu olaraq Qarabağ müharibəsinin ilk mərhələsində Ermənistanla seperatçılar arasında "nəfəs borusu" rolunu oynayıb. Həm müharibə dövrü, həm də ikinci yol çəkilənə qədər Ermənistan Qarabağın bütün hərbi, texniki və mülki təchizatını bu yol vasitəsilə həyata keçirib. Məhz buna görə də, Laçın ərazisinin Azərbaycana qaytarılması və ya heç olmasa bu dəhlizin erməni tərəfinin hərəkəti üçün bağlanılması, Ermənistanı Qarabağ ərazilərinə nəzarətdən məhrum edirdi. Bu dəhlizdən qondarma Dağlıq Qarabağ Respublikası Ermənistana böyük miqdarda ərzaq və digər materiallar keçirir. Əvəzində isə Ermənistan Respublikası Dağlıq Qarabağ Respublikasından elektrik alırdı. Bir sözlə, Laçın dəhlizi olmadan Qarabağ, Şuşa ola bilməzdi onlar üçün. Ona görə də burada mövqelərini gücləndirmişdilər. Lakin bir zamanlar öz əlləri ilə başqasının torpağında, Laçın şəhərinin tən ortasından açdıqları dəhliz, sən demə, qarşıdakı illərdə ölkəmizin rəhbəri tərəfindən onların ölüm tunelinə çevriləcəkmiş. Çevrildi də. Ermənilərin Laçından çıxması görüntülərini televiziya vasitəsilə izləyənlər bunun bir daha şahidi oldular ki, onların nəfəs boruları tıxanmışdı. Çünki Laçın dəhlizi əllərindən çıxırdı, deməli, həyat onları tərk edirdi.

Azərbaycan Respublikası Prezidentinin xalqa müraciətindən: ***"Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə, 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir".***

Beləliklə, Laçın artıq bizim olduğu üçün həmin 5 kilometr düşmənin ölüm tunelidir.

### *Qarabağ işğalı ilə yaşıd Naxçıvan blokadası*
### *Doqquzuncu bənd – nəqliyyat damarı*

Biz 30 ilin torpaq həsrətliləri, həm də 30 ilin blokada Naxçıvanının insanları idik. 1990-cı illərin alın yazısına çevrilən bu iki acısının da düyünü çözülüb artıq. Ölkəmizin Prezidentinin həm hərb meydanında, həm siyasi müstəvidə bütün dünyaya nəyə qadir olduğumuzu göstərməsi ilə, dəmir yumruq ətrafında birləşməyimizlə, övladımızı itirib "Vətən sağ olsun!" deməyimizlə, dağılan, viranə qalan evlərimizə alın belə qırışdırmamağımızla, uçuq-söküklər altından yalnız bayrağımızı xilas edib köksümüzə sıxmağımızla bütün dünyaya milli mənliyin, torpaq sevgisinin nə olduğunu bəyan etdik. İndi illərlə acılarımıza susan dünya ölkələrinə həm hərbimizlə, həm də mənəvi dəyərlərimizlə örnəyik.

Qarabağla yaşıd olan Naxçıvan blokadasının da 30 illik düyünü açılmaqdadır. Qarabağ torpaqlarının işğalı ilə başlanan Naxçıvan blokadası torpaqların azad olunması ilə də aradan qaldırılır. Artıq Naxçıvan da Qarabağ torpaqları kimi, həsrət qaldığı anası Azərbaycanın qoynuna sığına biləcək, həsrəti sona yetəcək. Buna düşünülmüş siyasətin bəhrəsi olan 10 noyabr Bəyanatı ilə nail oluruq. Ölkə Prezidentinin xalqımıza müraciətindən: ***"Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda ikinci məsələ – tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası – bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni bu nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir".***

### *Sarı Aşıq, sıx sazını sinənə, gəl Laçını vəsf elə...*

Ey Laçının Sarı Aşığı, illərdir, ruhun yurdunun səmalarında dolanırdı, işğal nisgilindən qəbirində özünə rahatlıq tapa bilmirdin. Səslə bu yurdun igidlərini, bu torpağın şəhidlərini, bütün oğul-qızlarını yığ başına. Ozan ol, çıx qabağa, yurdun azad olmasını çatdır laçınlılara. Axı sən çox nigarandın, Güləbirddən, elə hey bayatılarında danışırdın:

*Mən aşiq Güləbirdə,*
*Şeh düşdü Güləbirdə.*
*Bir quş olub uçaydım,*
*Qonaydım gülə bir də.*

Gəl, Sarı Aşıq, doğulduğun Qaradağlı kəndi də, uyuduğun Güləbird də sənin yolunu gözləyir. Gəl, yurdunu Vətən hesab edirdin, gəl, alın açıqlığı ilə hər kəsə de ki:

*Aşıq, Vətən yaxşıdı,*
*Köynək kətan yaxşıdı.*
*Qəriblik cənnət olsa,*
*Yenə Vətən yaxşıdır.*

***Gəl, bu ellərə bayatı qoş, şeir yaz. İndi Qarabağın bir başqa növrağı var. Qarabağ dünyanın dilində sözdür, igidlərin al qanıdır, Azərbaycanın bayrağıdır. Gəl, sıx sinənə sazını, səsin dağlara düşsün. İndi hamı deyir, sən də de, sırala misralara ki: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!***

**Mətanət MƏMMƏDOVA**

# Zəfər soraqlı igidlərimiz geri qayıdır



Bildiyimiz kimi, sentyabrın 27-də düşmən ölkənin hərbi birləşmələrinin cəbhəboyu həyata keçirdiyi növbəti təxribatdan sonra ordumuzun bölmələri tərəfindən əks-hücum əməliyyatı yerinə yetirildi və 44 gün ərzində davam edən döyüşlər nəticəsində işğal altında qalan torpaqlarımızın böyük bir qismi erməni tapdağından azad oldu. Ard-arda işğaldan təmizlənən torpaqlarımızda üçrəngli bayrağımız dalğalandı, Şuşanın azad edilməsindən sonra Böyük Qələbəmizin imzası atıldı.

10 noyabr gününə – Qələbə tariximizin ən parlaq səhifəsinə öz qanları, canları ilə imza atan, tarixi sevinc hissini bizə yaşadan, zəfər bayramımızı gətirən igid oğullarımızın qəhrəmanlıqları hər gün qürurla xatırlanır, dillərə dastan olur. II Qarabağ savaşında Azərbaycanın hər bölgəsindən iştirak edən ərənlərimiz artıq öz evlərinə qayıdırlar. Şücaəti, mərdliyi, əzmi ilə seçilən naxçıvanlı igidlərimizin daha bir qrupu noyabrın 30-u gecə saatlarında Sədərək gömrük-keçid məntəqəsindən keçməklə Naxçıvana qayıdıblar. Sakinlər zəfər məramlı Vətən oğullarının gəlişini böyük sevinc hissi ilə qeyd edib, yolboyu üçrəngli bayrağımız dalğalandırılıb, Vətənimizin bütövlüyü, igidlərimizin şücaəti ilə bağlı şüarlar səsləndirilib.

**Türkan HÜSEYNLİ**

## Əfsanəyə dönən ömürlər
### ( I yazı )

***Əbədiyyətə qovuşduğu vaxtdan qırx gün keçən, Şərur rayon Çomaxtur kəndindən Hadruta qədər uzanan şərəfli yolun qəhrəmanı Zülal Mədətlinin əziz xatirəsinə...***



Günlərdir, ancaq fotolarda görürəm köksündə gəzdirdiyin üçrəngli bayraqla, güllərlə bəzənən məzarını. İnana bilmirəm, sənin bir ovuc torpağa sığdığına. Axı sən bu boyda dünyaya sığmırdın, hamımızdan seçilirdin. Yaşda balaca olmağına baxmayaraq, bütün uşaqlardan çevik idin. Kimin isə haqqı tapdananda özündən böyük uşaqların belə, üstünə atılmaqdan çəkinmirdin, qorxmurdun heç nədən. Sıranı həmişə pozurdun, qabağa keçirdin. Elə indi də keçdin, hamıdan öndə sinəni sipər etdin Vətənə. Yadındamı? Hələ Türkiyədə yaşadığın vaxtlar deyirdin, qayıdan kimi orduya yazılacam. Bəsdir, daha burada qaldım, bir az da gəlim Naxçıvanın dağının-daşının ətrini alım. Qayıdan kimi də dediyini etdin. Geyindin o çox sevdiyin formanı. Nə tez-tez baxırdın özünə güzgüdə? Haqlı idin öyünməkdə! İgid, cəsur görkəminə yamanca yaraşırdı hərbi forman. Bir arzun da var idi: "Gedib o qansızların nəfəsini kəsim, ya qalib, ya qazi, ya da ki, şəhid olum. Təki bu dərd bitsin. Axı biz bitirməsək, gərək bizim balalarımız bitirə. Onlara qalmasın, bizim nəsil alsın haqqını, gələcək nəsillərə qalmasın. Mən döyüşməsəm, biz döyüşməsək, canımızı verib bu münaqişəni bitirməsək, gərək bizim balalarımız bitirə".

Qıymırdın o dördyaşlı körpənə. Deyirdin qoy oğlum, oğullarımız yaşasın, onlar məğlub olan bir millətin yox, müzəffər bir xalqın övladları olsunlar. Rəhim neçə gündür, papağını götürüb başına qoyub deyir: "Atam kimi olacağam". O, sevdiyin hərbi formadan da aldırıb geyinib, başına da xüsusitəyinatlı papağını qoyub məzarına gəlib sənə əsgər salamı verir. Dəniz deyir ki, atam qəhrəmandır. O, Mübariz kimi qəhrəman oldu. Evimizə bayraq gətirdilər, qapımızdan da asıblar. Mən bilirəm, ancaq qəhrəmanların evinə bayraq asırlar.

Aqil şəhid olan günü gəlib özün çiynində yola saldın onu son mənzilə, məzara da özün qoydun. "Gedib qisasını alacağam, qonşuma qıyan erməninin yüzünü onun yolunda qurban edəcəyəm", – dedin. Getdin aldın Aqillərin qisasını! Hadrutdan, Cəbrayıldan qayıdan yoldaşların səndən danışır. Sən nə qədər Vətən sevgisi saxlayırmışsan ürəyində?! Sən düşmənə necə bir nifrət bəsləyirmişsən qəlbində?! Son dəfə Qarabağa gedən günü sağollaşanda "Gedirəm, nəfəsini kəsəcəyik o erməninin görərsən, alacağıq Şuşanı. Müjdəni də özüm verəcəm sənə, dayıqızı, görüm onda məndən nə yazacaqsan", – dedin.

Sənin kimi oğulların şəhidliyi bir od oldu düşdü hamımızın ürəyinə. Əzizlərini itirənlərin ocağına düşən bu od birləşib böyük bir məşələ döndü. İşıq saldı igidlərin yoluna, yandırdı düşmənimizi, külünü göylərə sovurdu, məhv etdi onları, azad edildi torpağımız. Cəbrayılda, Füzulidə, Qubadlıda, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə sönən çırağımızı yenidən alovlandırdı. Bax Şuşada, Hadrutda, daha neçə-neçə işğaldan azad edilən torpaqlarda yanan işıqlara. Onları sənin kimi igidlər öz canları bahasına yandırdı. Bir daha sönməyəcək o çıraqlar! Onlar yanıb işıq saldıqca ətrafına, sən də, sənin kimi bütün igid oğullar da yaşayacaq.

Bu gün təkcə mən yox, bütün Azərbaycan sənin kimi oğulların igidliyindən yazır, danışır, bitmir sizin qəhrəmanlığınız. Çünki elə bir qəhrəmanlıq dastanı yazdınız ki, tarixə onu yazmaqla, danışmaqla bitməz, bitməyəcək də...

✍ **Ramiyyə ƏKBƏROVA**

*Ümumtəhsil müəssisələrində "Tariximizi qoruyaq və yaşadaq" devizi altında keçirilmiş aksiyada toplanan eksponatlar Mədəniyyət Nazirliyinə təqdim edilib.*

## "Tariximizi qoruyaq və yaşadaq" aksiyasında məktəblilər 463 eksponat toplayıblar



Tədbiri Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov açaraq bildirib ki, ümumtəhsil məktəblərində "Tariximizi qoruyaq və yaşadaq" devizi altında aksiyaların keçirilməsində əsas məqsəd tariximizin öyrənilməsi ilə yanaşı, onun qorunması və yaşadılması istiqamətində müəllim və şagirdləri fəal iştirakçıya çevirmək, onlara qədim maddi mədəniyyət nümunələrini toplayaraq muzeylərin zənginləşdirilməsi işinin vətəndaşlıq borcu olduğunu aşılamaqdır.

Qeyd edilmişdir ki, aksiya təhsil ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmış, qədim maddi mədəniyyət nümunələri, o cümlədən şəxsi kolleksiyalarda olan tarixi və bədii əhəmiyyət daşıyan 463 eksponat müəllim və şagirdlərimiz tərəfindən toplanaraq bir araya gətirilmişdir. Bunlara toxuculuq məmulatları, məişət əşyaları, təsərrüfat alətləri, daş əmək alətləri, pul nümunələri və digər məmulatlar aiddir.

Təhsil naziri bu aksiyanın 2020-2021-ci tədris ilində də davam etdiriləcəyini bildirib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova diqqətə çatdırıb ki, muxtar respublikanın muzeylərində xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox maddi mədəniyyət nümunəsi mühafizə olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən bu gün muxtar respublikamızda olan muzeylərlə ümumtəhsil məktəbləri arasında distant dərslər təşkil edilir, həmçinin yetişməkdə olan gənc nəsil üçün açıq dərslər keçilir. Bu ilin yanvar-noyabr ayları ərzində muzeylərdə məktəblilər üçün 10 interaktiv, 148 açıq dərs keçilib. Mövcud vəziyyətlə bağlı olaraq muxtar respublikanın muzeyləri aprel ayından etibarən onlayn fəaliyyət göstərir. Bu müddət ərzində muzeylər tərəfindən onlayn ekskursiyalar təşkil edilib, sosial şəbəkələrdə milli mədəniyyətimizi, milli tariximizi təbliğ edən videomateriallar nümayiş olunub. 2020-ci ilin yanvar ayından bu günə kimi muzeylərdə sosial şəbəkələr vasitəsilə 911 onlayn ekskursiya keçirilib.

Tədbirdə Kəngərli rayon Xok kənd tam orta məktəbinin direktoru Zal Rüstəmov məktəbdə yaradılan yüksək təhsil şəraitindən danışaraq bildirib ki, müstəqillik ideyalarına sadiq, milli-mənəvi dəyərlərimiz və tariximiz haqqında ətraflı biliyə malik şagirdlərin yetişdirilməsi üçün tədris prosesində onlarla mədəni sərvətlərin qorunması və yaşadılması mövzularında maarifləndirici söhbətlər aparılır. Bunun nəticəsidir ki, aksiyada məktəbimiz muxtar respublikanın ümumtəhsil məktəbləri arasında fərqlənib.

Tədbirdə Naxçıvan Qarnizonu tam orta məktəbinin IX sinif şagirdi Ayla Allahverdiyeva aksiyanın onlarda böyük maraq doğurduğunu və asudə vaxtlarında axtarışda olaraq eksponatların toplanmasında həvəslə iştirak etdiklərini diqqətə çatdırıb.

"Tariximizi qoruyaq və yaşadaq" devizi altında keçirilmiş aksiyada fəal iştirak edənlər "Ən fəal təhsil şöbəsi", "Ən fəal məktəb", "Ən fəal müəllim", "Ən fəal şagird" nominasiyaları üzrə diplom və hədiyyələr ilə mükafatlandırılıb.

Sonda toplanmış eksponatlardan ibarət sərgiyə baxış olub. Eksponatlar Təhsil Nazirliyi tərəfindən Mədəniyyət Nazirliyinə hədiyyə edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Dezinfeksiya işlərinə xüsusi diqqət yetirilir

*Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında dezinfeksiya tədbirləri ardıcıl şəkildə həyata keçirilir. Dərmanlama işləri qrafik əsasında muxtar respublikanın şəhər, qəsəbə və kəndlərini, yaşayış məntəqələrindəki sosial obyektləri, təhsil müəssisələrini əhatə edir.*



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xüsusi təyinatlı avtomobilləri Naxçıvan Beynəlxalq Hava Limanına gedən yolu, Heydər Əliyev prospektini, Əziz Əliyev, Cəlil Məmmədquluzadə, "İstiqlal", Nəsirəddin Tusi küçələrini və digər əraziləri dezinfeksiya ediblər. Həmçinin Naxçıvan Dövlət Musiqili Dram Teatrının, Naxçıvan şəhərindəki İstirahət Mərkəzinin ətrafı, Sahil Parkı da dərmanlanıb. Dərmanlama işləri şəhərdəki ticarət mərkəzlərində, yaşayış binalarında, ictimai iaşə obyektlərində, uşaq bağçalarında və məktəblərdə də aparılıb.

Qeyd edək ki, yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında, ümumilikdə, 3 milyon 764 min kvadratmetrdən çox ərazidə dezinfeksiya tədbirləri aparılıb.

## Könüllülər təmizlik aksiyası keçiriblər



Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən start verilmiş "Naxçıvan Könüllülərinin Birlik Həftəsi" çərçivəsində könüllülər "Təbiətimiz" devizi altında təmizlik aksiyası keçiriblər. Vayxır gölü ətrafında baş tutan təmizlik aksiyasının keçirilməsində məqsəd təmizliyə riayət olunmasını təbliğ etmək, göl ərazilərinin məişət tullantıları ilə çirkləndirilməsinin qarşısını almaq və digər insanlara nümunə olaraq onları da ətraf mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Sonra təmizlik aksiyasına start verilib. Zəruri sanitar ləvazimatlarla təmin olunan könüllülər tullantıları sahələrdən toplayıb, ətrafda səliqə-sahman yaradıblar.

**Xəbərlər şöbəsi**

## Standartlara uyğun olmayan elektrik və qaz cihazlarının idxalına icazə verilmir

Muxtar respublikamızda əhalinin standartlara uyğun olan qızdırıcı elektrik və qaz cihazları ilə təmin olunmasına və bu istiqamətdə təhlükəsizlik tədbirlərinin görülməsinə xüsusi diqqət yetirilir. Hər il Naxçıvan Muxtar Respublikasında payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələrdə aidiyyəti qurumların üzərinə konkret vəzifələr qoyulur. Avqust ayının 12-də keçirilmiş analoji müşavirədə verilmiş tapşırığa uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi və aidiyyəti dövlət orqanları tərəfindən standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilmir. Bu istiqamətdə görülən qabaqlayıcı tədbirlər əhali rahatlığının və təhlükəsiz həyatın təmin olunmasına xidmət edir.

Müşavirədən ötən dövr ərzində gömrük orqanları tərəfindən standartlara uyğun olmayan 66 qaz sobası, 35 qaz piləteşi, 20 qızdırıcı elektrik cihazı, 3 qazla işləyən suqızdırıcı saxlanılıb. Xaricdən gətirilən 4335 qaz sobası, 1354 qaz piləteşi, 860 qazla işləyən suqızdırıcı isə standartlara uyğun olduğundan buraxılıb. Birgə tədbirlər planına əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi, Fövqəladə Hallar Nazirliyi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında 126 ticarət obyektinə baxış keçirilib, standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazları aşkarlanmayıb.

Qeyd edək ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi mallar məcburi sertifikasiyadan keçməlidir. Uyğunluğu təsdiq edən sertifikat olmadıqda həmin malları ölkə ərazisində satmaq və istifadə etmək qadağandır. Müvafiq səlahiyyətli orqan, yəni Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatı belə malların ölkə ərazisinə idxal edilməsinə gömrük orqanları tərəfindən icazə verilməsi üçün əsasdır.

Standartlara uyğunluğu müvafiq dövlət orqanı tərəfindən təsdiqlənməmiş qızdırıcı elektrik və qaz cihazlarının idxalına icazə verilməməsi məhz istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin tərkib hissəsidir. Çünki qanunvericilik uyğunluq sertifikatı təqdim olunmadan təhlükəsizliyi təmin edilməli olan malların gömrük sərhəd-buraxılış məntəqələrindən keçirilməsinə yol vermir. Bununla bağlı xarici iqtisadi fəaliyyət iştirakçıları və fiziki şəxslərə qanunvericiliyin tələbləri izah edilir. Uyğunluq sertifikatı olmadan idxal edilən qızdırıcı elektrik və qaz cihazları sərhədkeçid məntəqələrində saxlanılır. Gətirilən qaz cihazlarının, o cümlədən sobaların təhlükəsizlik sistemi yoxlanılır və müsbət rəy verildikdən sonra buraxılışına icazə verilir.

Muxtar respublikada məskunlaşma səviyyəsinin ilbəil artması, əhalinin böyük əksəriyyətinin kəndlərdə yaşaması fərdi yaşayış evlərində qazla işləyən cihazlara tələbatı artırmaqla yanaşı, onlardan istifadə zamanı təhlükəsizliyin təmin olunmasını da aktual edir. Çünki mavi yanacaq nə qədər sərfəli və rahat olsa da, təhlükəsizlik təmin olunmadıqda bədbəxt hadisələri qaçılmaz edir. Sevindirici haldır ki, həyata keçirilən məqsədyönlü və qabaqlayıcı tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında rahat və təhlükəsiz həyat təmin olunur.

Yeri gəlmişkən qeyd edək ki, standarta uyğun sobalarda dəm qazının miqdarı həyat üçün təhlükəli olduqda qazın sobaya girişini avtomatik olaraq dayandıran xüsusi qurğu olur. Üstəlik, hər hansısa səbəbdən qaz nəqli dayandıqda ehtimal olunan təhlükələrin qarşısının alınması üçün sobalar avtomatik qaz kranı, yəni qaz requlyatoru ilə təchiz edilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi bir daha diqqətə çatdırır ki, təhlükəsizliyin təmin edilməsi və istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə standartlara uyğun olmayan elektrik və qaz cihazları muxtar respublikaya buraxılmır. Xaricdən gətirilən bu tip cihazların gömrük postlarından buraxılışına aidiyyəti dövlət orqanı tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatı əsasında malın standartlara uyğunluğu yoxlanılmaqla icazə verilir.

**Rahil TAHİRLİ**
***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşı***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 896